# Gözəllik dünyanı xilas edəcək

## *Dostoyevskinin “İdiot” romanı barədə*



Məmməd Qocayev
*Professor*

“Gözəllik dünyanı xilas edəcək”. Bəs gözəllik dünyanı necə xilas edəcək? Bu suala cavab tapmaq, özü də Dostoyevskinin ümidsizlik içində çapalayan, min bir fəlakətə düçar olan, faciələr yaşayan qəhrəmanlarının təsvir olunduğu romanlarında bu cavabı axtarıb tapmaq o qədər də asan məsələ deyil. Yazıçının “İdiot” romanı məhz bu məsələyə, yəni gözəlliyə, onun həyatdakı missiyasına və acı aqibətinə həsr olunmuşdur. Bu romanın məqsədini Dostoyevski belə izah edir: “Romanın əsas ideyası müsbət gözəl insanın təsviridir. Dünyada bundan da çətin heç nə yoxdur, xüsusilə də indi. Bütün yazıçılar, təkcə bizimkilər deyil, hətta bütün Avropa yazıçıları, müsbət gözəlliyi təsvir etmək istəyənlərin hamısı daim təslim olmuşlar. Çünki bu, hədsiz bir məsələdir. Gözəllik idealdır, ideal isə - nə bizimki, nə də sivil Avropanınkı - hələ yaranmamışdır”.

Müsbət qəhrəman, ideal insan problemi 60-cı illər rus ədəbiyyatının qarşısında bir vəzifə kimi durmuşdu. Dostoyevski dindar bir yazıçı idi və heç vaxt unutmurdu ki, insandan daha yüksəkdə duran bir qüvvə vardır ki, daim ona pənah gətirmək lazımdır və bütün ümidlərin nicatı onun iradəsinə tabe olmaqdadır. Odur ki, inqilab deyil, gözəllik dünyanı dəyişdirəcək. İnsanların qəlbi gözəllik işığı ilə ziyalananda, insan ruhu gözəlliyə tapınanda insan özü bir varlıq, yaradıcı bir qüvvə kimi dəyişəcək. Gözəllik pərəstişkarı olan xeyirxah insanlardan ibarət cəmiyyət özü gözəl, kamil və ədalətli olacaqdır. Dostoyevski dönə-dönə qeyd edirdi ki, dovşan ətindən raqu bişirməkçün əvvəlcə dovşanın özü lazımdır. Yəni insanların bir-birinə qardaş kimi münasibətdə olacaqları cəmiyyəti yaratmaq üçün əvvəlcə qardaşlığa qadir insanlar olmalıdır.

Beləliklə, “İdiot” romanında Dostoyevskini məşğul edən əsas məsələ müsbət insan məsələsidir. M.Y.Saltıkov-Şedrin yazırdı: “O (yəni Dostoyevski - M.Q.) nəinki cəmiyyəti narahat edən maraqların qanuniliyini qəbul edir, hətta bundan da qabağa gedir, elə öncəgörmə və öncəduyma sahəsinə daxil olur ki, bu da bəşəriyyətin bilavasitə deyil, ən uzaq gələcəkdəki axtarışlarını təşkil edir”.

Knyaz Mışkin obrazını, yəni ideal insan obrazını yaratmağa başlayanda Dostoyevskinin gözləri önünə iki obraz gəlirdi. Onlardan biri İsa, digəri Don Kixot idi. Dostoyevskinin qəhrəmanı mənəvi-ruhi kamillik mücəssəməsi olaraq İsa qədər mərhəmətli, az qala müqəddəsdir, lakin real həyatda o, Don Kixot qədər gülüncdür. Nədən Servantes və Dostoyevski öz sevimli və ideal qəhrəmanlarını gülünc vəziyyətlərdə təsvir edirlər? Məsələ burasındadır ki, mühit, cəmiyyət, insanlar bu ali saflığı, bu ideallığı dərk edə və dəyərləndirə bilmirlər. Məhz naqis cəmiyyətin fonunda ideal insan gülünc vəziyyətə düşür, gözəllik faciələrə düçar olur. İdealın faciəyə düçar olmasına onun gülünc vəziyyətə düşməsindən daha asan dözmək olur. Hamletin faciəsi də, Don Kixotun gülünc vəziyyətlərdəki rusvayçılıqları da eyni kökə bağlıdır. Hamletin faciəsində heç olmasa bir katarsis vardır, Don Kixotun komediyası sonsuz ümidsizliyin ifadəsidir. Hamletin faciəsi qaranlıqdakı zəif işıq ziyasına, Don Kixotun komediyası isə günün günorta çağındakı zülmətə bənzəyir. Dünya qaranlığında işığı görmək, dünya işığında kor olmaqdan daha asan yaşanır. Ona görə də Don Kixotun komediyası Hamletin faciəsindən daha acınacaqlı, daha acı, daha ümidsizdir. Eynilə də Mışkinin komediyası. İsa xislətli bir şəxs XIX əsrin Peterburqunda Don Kixot qədər gülməli və acınacaqlı bir vəziyyətə düşür.

Əsər bütün əsas qəhrəmanların (Mışkin, Nastasya Filippovna, Parfyon Raqojin) Peterburqa gəlişi ilə başlanır və onların qarşılıqlı münasibətləri əsasında inkişaf edir.

Mışkin İsveçrədə ruhi xəstəlikdən müalicə olunurdu. Onun Rusiyadakı himayədarı vəfat etdikdən sonra və müalicənin pulunu ödəməyə adam olmadığından Mışkin Peterburqa qayıdır.

Nastasya Filippovna, bu gözəl qadın əyalətdə yaşayırdı və knyaz Totski deyilən zəngin bir kişinin cariyəsi idi. Eşidəndə ki, Totski evlənir, Nastasya Filippovna Peterburqa gəlir və sadəcə olaraq nifrətdən Totskiyə mane olmaq, onu kübar cəmiyyətində rüsvay etmək istəyir.

Parfyon Roqojin - bu ehtiraslı, primitiv tacir oğlu atasının qorxusundan xaricə, Polşaya qaçmışdı. İndi atasının öldüyünü eşidib Peterburqa qayıdır və milyon yarımlıq vərəsəyə sahib olur.

Qatarda Mışkinlə Roqojin bir vaqonda gəlirlər və yolda tanış olurlar. Mışkin Roqojindən Nastasya Filippovna barəsində eşidir. Süjet hadisələrinin ilk düyünü burada bağlanır.

Həm Roqojin, həm də Mışkin gözəl Nastasya Filippovnanı sevirlər. Amma bu ayrı-ayrı sevməkdir, bir-birinə bənzəməyən məhəbbətdir. Mışkin Nastasya Filippovnanın gözəlliyində bir ilahi hikmət görür və bu gözəlliyə təmənnasız olaraq vurulur. Mışkin bu gözəl qadını gözəlliyin xatirinə sevir. Bir də ona görə sevir ki, bu gözəl qadın həyatda ruhi müsibətlər çəkib. Mışkin onun iztirablarını da sevir, sevir və halına acıyır, rəhmi gəlir. Onun məhəbbətində sevgi və rəhm birləşir.

Amma Roqojin Nastasyanı ağır, ağrılı bir ehtirasla sevir. Onun məhəbbətində ehtiras da var, sevgi də. O, gözəl qadına da tacir kimi yanaşır, ona gözəl və qiymətli bir əşya kimi baxır, bu gözəlliyi pulla almaq istəyir. Mışkinin məhəbbətinə layiq xalq edilmiş gözəl Nastasya bu cəmiyyətdə Roqojinin məhəbbətinə layiq kimi dəyərləndirilir. Acınacaqlısı odur ki, o daha çox Roqojinə layiqdir, nəinki Mışkinə. Mışkin üçün, onun sonsuz məhəbbəti üçün, bu məhəbbətə layiq yaradılmış gözəllik Roqojinə qismət olur. Lakin bu gözəllik Roqojininki olmaq istəmir. Mışkinin də ola bilmir. Faciəvi situasiya yaranır. Buradan isə bircə çıxış yolu qalır - ölüm yolu.

Beləliklə, əsərin süjet xətti iki güclü dəyərin - gözəlliyin və pulun - toqquşması şəklində başlayır və davam edir. Gözəllik ilahi və insani dəyərdir, pul isə ictimai dəyərdir. Cəmiyyətdə pulun gücü və səlahiyyəti gözəllikdən üstündür. Pul cəmiyyətdə yaramazı da birinci insan kimi təqdim edir. Ona görə də əsərin digər personajı - Qanya İvolgin, bir gənc, varlanmaq və milyonçu olmaq yolu ilə nəinki seçilmək, hətta cəmiyyətdə ən yüksək mövqelərdən birini tutmaq istəyir. Ona görə də general Yepançin və knyaz Totski ona Nastasya Filippovnayla evlənməyi təklif edəndə o buna razı olur. Ona görə razı olur ki, Totski öz cariyəsinə yetmiş beş min həcmində pulu cehiz kimi verir. Burada da pulla gözəllik əks dəyərlər kimi qarşılaşır.

Əsərin kulminasiya nöqtəsi Nastasyanın ad günündə baş verən hadisələrdir. Bu gün gözəlliklə pulun ölüm-dirim mübarizəsi başlanır. Bu gün, nəhayət ki, Nastasya Filippovnanın müqəddəratı həll olunmalıdır: o, Qanya İvolginə ərə getməyə razılıq verməlidir. Bu qərardan çox şey asılıdır: birincisi, Totski azad olur və general Yepançinin qızlarından birilə evlənir; ikincisi, general həm qızını varlı adama ərə verir, həm də öz təbeliyində olan Qanya İvolginin gözəl arvadını özünə məşuqə kimi seçir; üçüncüsü, Qanya yetmiş beş minə sahib olur. Burada uduzan Parfyon Roqojin olur. Amma, deyəsən, o təslim olmaq fikrində deyil. Bu ərəfədə Roqojin Qanyanın evində Nastasya Filippovnayla görüşür və onlar belə şərtləşirlər ki, axşam Roqojin yüz min gətirsə, bəlkə də Nastasya ona ərə getməyə razılıq verdi. Burada yaddan çıxan, heç kəsin hesaba almadığı, hətta ad gününə dəvət olunmayan knyaz Mışkindir. Onun dərdi hamınınkından böyükdür. O, faciənin yaxınlaşdığını hiss edir, qonaqlığa özü çağırılmamış gəlir.

Nəhayət, həlledici məqam yetişir. Nastasya Filippovnaya söz verilir. O, son sözünü deməlidir. Burda birdən onun gözləri knyaza sataşır və bir andaca qərar qəbul edir: knyaz necə desə, eləcə də hərəkət edəcəyəm. Mışkin isə ona Qanyaya ərə getməyi məsləhət görmür. Nastasya da öz qərarını verir. Bu, Totski və Yepançin nüfuzuna vurulmuş ilk ağır zərbəydi. Burada onların sözü deyil, hansısa idiotun sözü həlledici rol oynayır. Generalın incidiyini görən Nastasya Filippovna onun bağışladığı bahalı hədiyyəni generala qaytarır və deyir ki, aparıb öz arvadına bağışlasın. Bu cür hörmətsizlik generala bərk toxunur.

Bu səhnənin mahiyyəti ondadır ki, daim pulun və var-dövlət sahiblərinin sözü keçən cəmiyyətdə bir axşamlığına hakimiyyət gözəlliyin əlinə keçir. Axı bu gün gözəl Nastasyanın ad günüdür və heç kəs də onun dediklərinin əleyhinə getməməlidir. Gözəlliyin hakim olduğu bu axşam sanki cəmiyyətdəki bütün dəyərlər öz yerlərini dəyişir: hamının ikrahla üstünə güldüyü və adam yerinə qoymadığı Mışkin hökmdar seçilir, onun sözü həlledici olur. Hamının sayıb-seçdiyi general və knyaz Totski sanki əsilzadəlik,kattalıq pilləsindən salınır və gülməli bir vəziyyətə düşürlər. Dünyanın yeni modeli, yeni düzəni yaradılır. Dünya başqa bir çırağın, gözəlliyin parlaq işığı ilə işıqlandırılır və hər şey öz rəngində, öz əsl mahiyyətində görünür. Amma bu hal uzun sürmür, sürə də bilməzdi. Əks təqdirdə, əgər gözəllik əbədi qələbə çalsaydı, bu, Nastasyanın gözəlliyilə Mışkinin xeyirxahlığının təntənəsi və harmoniyası ola bilərdi. Bu isə pulun hökmranlıq etdiyi dünyada mümkün deyildi.

Nastasya Filippovna knyaz Mışkindən soruşanda ki, bəs o, kimə ərə getsin, onda Mışkin özünün Nastasya Filippovnayla evlənməyə hazır olduğunu bildirir və bu da hamının gülüşünə səbəb olur. Nastasya Filippovna isə nifrət etdiyi bu dünyanın nüfuz sahiblərini bir daha alçaltmaq, məhv etmək üçün buna razı olur, hamının qarşısında Mışkinə ərə getməyə söz verir, yəni rəsmi olaraq bu gündən etibarən onun nişanlısı hesab olunur. Sanki gözəllik özünün qələbəsini bayram edir. Amma bu bayram uzun sürmür. Yenə də ortaya pul söhbəti düşür. Nastasya Filippovna Mışkindən soruşur ki, bəs onlar hansı vəsaitin hesabına yaşayacaqlar? Onda Mışkin işləyəcəyini və pul qazanıb ailəsini dolandıracağını söyləyir. Bu da hamıya gülməli görünür. Bu yerdə Mışkin cibindən bir məktub çıxarıb göstərir və söyləyir ki, deyəsən, ona hansısa qohumundan vərəsə çatacaq. Bu işdən başı çıxan bir nəfər məktubu oxuyub, hamıya elan edir ki, bu məktubun əsasında knyaz ən azı bir milyon yarım pula sahib olacaq. Belə çıxır ki, Nastasya Filippovnanın gələcək əri milyonçudur. Burada hamının və ilk növbədə üç cavan qız atası olan general Yepançinin Mışkinə olan münasibəti tamamilə dəyişir. General onu kənara çəkib deyir ki, knyaz ağlını başına yığsın, ona Nastasya Filippovna kimisi gərək deyil. İndi general öz qızlarından birini, bəlkə də gözəl Aqlayanı Mışkinə ərə verməyə etiraz etməzdi. Nastasya Filippovna hər şeyi görür və onun qəlbində yeni etiraz, yeni nifrət dalğası baş qaldırır. Milyonçular dünyasını atıb yoxsul Mışkinə ərə getmək istəyən Nastasya Filippovnanın qarşısında yenə də milyonçu dayanmışdı. Milyonlar və milyonçular dünyasına qarşı öz dərin nifrətini bildirmək istəyən Nastasya Filippovnanın




ağlında yeni bir plan baş qaldırır: o, Mışkinin milyonundan da imtina etmək qərarına gəlir.

Bu yerdə Roqojin gəlib çıxır. Söz verdiyi yüz mini də götürüb gəlir. “Birjevıye vedomosti” qəzetinə bükülmüş və üstündən kəndirlə bağlanmış çirkli pul dəstəsini Roqojin masanın üstünə qoyur. Deməli, bu yüz min Nastasya Filippovnanın, onun qadın ləyaqətinin, onun gözəlliyinin dəyəridir. Burda sanki qadın gözəlliyi hərraca çıxarılmışdı. Bu hal Nastasyanı son dərəcə qəzəbləndirir. Əgər onun gözəlliyini alıb-satırlarsa, onda bu gözəlliyin dəyəri çox böyük olacaq. Burada çirkli pul paçkaları ilə yaxa qurtarmaq, üstəlik də qalib gəlmək və gözəl qadına sahib olmaq baş tutmayacaq. Nastasya Filippovna qərar qəbul edir və sonuncu dəfə bu cəmiyyətə öz nifrətini bildirmək istəyir. O, Qanyaya müraciət edərək deyir: bu pulları o indi yanar sobaya atacaq və əgər Qanya onları yalın əllə hamının gözləri qarşısında alovun içindən çıxarsa, pullar onunku olacaqdır. Bu hərəkət gözəlliyin pula sitayiş edənlərdən aldığı ən amansız bir intiqamdır. O, dediyi kimi də edir, pulları yanar ocağa atır. Pullar yanmağa başlayanda bu cəmiyyətin üzvlərinin özlərini necə aparması çox maraqlıdır və bu səhnə özündə dərin bir məna ehtiva edir. Otaqdakılar hər tərəfdən “Pullar yanır!” deyə qışqırırlar. Hamının sifətində sanki mistik bir dəhşətin ifadəsini görmək olar. Onlar üçün pulun yanması dinin və imanın yanması kimi bir şeydir. Lebedev deyilən birisi Nastasya Filippovnanın qarşısında diz çöküb yalvarır ki, ona icazə versin və o, bu pulları odun içindən dişlərilə çıxarmağa hazırdır. Bir nəfər pəhləvan cüssəli bir cənab da dişlərilə çıxara biləcəyini söyləyir. Amma Nastasya Filippovna yalnız Qanyaya icazə verir. Qanya sobaya yaxınlaşır, tərəddüd içində sobanın qarşısında dayanır, yanmağa başlayan pullara baxır və birdən huşunu itirərək yerə yıxılır.

*Davamı səhifə 17-də*

# Gözəllik dünyanı xilas edəcək

## *Dostoyevskinin "İdiot" romanı barədə*

*(Əvvəli səhifə 16-da)*

Əgər əclaflıq etmək lazımdırsa, gərək onu sonacan edəsən deyən Qanya, deyəsən, başladığı əclaflığı sonacan edə bilmədi, onun qəlbinin dərinliyində baş qaldırmış hansısa mənəviyyat duyğusu onu bu yolla sonacan getməyə qoymadı. Səhnə bədii və emosional cəhətdən son dərəcə güclü və realistik bir səhnədir. Bu səhnəni başqa cür bitirmək mümkün deyildi.

Burada Nastasya Filippovna pulları maşayla alovun içindən çıxarır, Qanyanın böyrünə qoyur və hamıya tapşırır ki, bu pulları ayılanda ona versinlər. Özü isə Mışkini və bütün cəmiyyəti təəccüb içində qoyaraq Raqojinlə çıxıb gedir. Qanya isə ayılandan sonra pullardan imtina edir. Onun qəlbində bu səhnənin təsiri altında nəsə kəskin bir təbəddülat baş verir. Burada gözəllik özü bir atəş təsiri göstərir. Gözəlliyin, daha dəqiq desək, qadın gözəlliyinin alova bənzəri vardır. Deyirlər, Sokrat başı üstündə əlində məşəl tutmuş gözəl bir qadını görüb deyir: "Alov üzərində alov!" Gözəllik və qadın deyilən bu alova düzgün münasibət olduğu təqdirdə o, işıq saçır və isidir, düzgün münasibət olmadıqda isə yandırıb-yaxır. Gözəlliyin alovu Qanyanı da yandırıb-yaxır. Nastasya Filippovnanın intiqamı çox amansız oldu. Onu pula satmaq istəyirdilər, o isə özünün təhqir olunmuş gözəlliyi və qadın heysiyyəti əvəzində onu hərraca qoyanların, alıb-satanların ruhunu və qəlbini, mənliyini və qürurunu tələb edir. Gözəlliyin qiyməti çox baha olur, Qanyanın onu almağa gücü çatmır.

Burada bir müqayisə də yada düşür. Puşkinin "Misir gecələri" adlanan və yarımçıq qalmış bir poeması var. Burada Misir hökmdarı gözəl Kleopatra təsvir olunur. Onun çoxlu sayda pərəstişkarları varmış. Bir dəfə o, öz pərəstişkarları qarşısında amansız bir şərt qoyur: onlar öz həyatları bahasına bu gözəl çariçanın bir gecəsini satın ala bilərlər. Bu şərti eşidən pərəstişkarların əksəriyyəti yoxa çıxır. Amma bu amansız alverə girişməyə cəsarət edənlər tapılır. Bir gecəlik nəşədən sonra onlar öz həyatları ilə vidalaşırlar. Gözəl qadın öz gözəlliyini pərəstişkarın həyatı bahasına satır. Ondan ucuz ola bilməz. Nastasya Filippovna da ucuz qiymətə razı olmur. Onun qoyduğu şərt bəlkə də Kleopatranın şərtindən daha amansızdır: Kleopatra pərəstişkarın həyatını, Nastasya Filippovna isə onun ruhunu və namusunu tələb edir.

Nastasya Filippovnanın bu hərəkətini, onun Mışkinə qarşı ədalətsiz davranışını tədqiqatçılar müxtəlif cür yozurlar. Ən geniş yayılmış fikir isə ondan ibarətdir ki, knyaz Mışkin Nastasya Filippovnanı sevmirdi, sadəcə olaraq ona yazığı gəlirdi. Bu isə təkəbbürlü gözəli təmin etmirdi. Ona görə də o, Mışkini atıb Roqojinlə getdi. Əslində isə məsələ daha mürəkkəbdir. Nastasya təhqir olunmuş və alçaldılmış qadındır. Onu uşaqlıqdan Totski gözaltılamış və böyüdüb öz cariyəsinə çevirmişdi. Bununla da gənc qızın bütün ümidlərinin üstündən qara bir xətt çəkmişdi. Nastasyanı bu acı aqibət çox sıxır və o, daim sözdə başqalarını günahlandırır, özünün isə günahsız olduğunu söyləyir. Amma qəlbinin dərinliyində özünü ittiham edir, özünü çarmıxa çəkir və heç cür bu mənəvi məsuliyyətdən yaxa qurtara bilmir. O, təkcə Totskidən, Qanyadan və s. intiqam almır, o, özündən də intiqam almaq, şüurlu şəkildə özünü hər bir müsibətə düçar etmək istəyir və bundan ləzzət alır. İndi Mışkini atıb Roqojinlə getməklə o, bir tərəfdən Totski və Yepançin cəmiyyətinin üzünə açıq-aşkar tüpürür, digər tərəfdənsə o, gizli şəkildə öz üzünə tüpürür. Nastasya Filippovna heç cür özünüittiham ehtirasından azad ola bilmir, ona görə də daim özünü Roqojinə layiq hesab edir, yəni bunu dildə deyir, ürəyində isə Mışkini arzulayır və bu arzu ona əlçatmaz bir xəyal kimi görünür. Nastasyanın Roqojinlə getməsi özünüittiham və özünəqəsddən savayı bir şey deyildi.

Bununla yanaşı, Nastasya Filippovna Roqojinlə çıxıb getsə də, Roqojininki ola bilmir və bir müddətdən sonra yenə də Mışkinin yanına qayıdır. Mışkini ona Allah özü göndərmişdi. Ona görə də onlara elə ilk görüşdəncə belə gəldi ki, onlar bir-birilərini haradasa görüblər və tanıyırlar. Amma onlar bir-birilərini yalnız öz xəyallarında və qəlblərinin istəklərində görmüşdülər. Kənddə tənhalıq içində yaşayan Nastasya öz xəyallarında daim Mışkin kimi birisini arzulayırdı və xəyal edirdi ki, bu cəngavər bir gün gəlib deyəcək ki, Nastasya Filippovna siz günahkar deyilsiniz və mən sizi sevirəm. İndi Mışkin, həqiqətən də, ona öz əlini və qəlbini təklif edəndə, Nastasya Filippovna ondan imtina edir. Keçmiş qəbahətlər onu daim izləyir və yeni həyata başlamağa imkan vermir. Burada Nastasya Filippovnanın qüruru da öz mənfi rolunu oynayır, o, özünə qalib gəlib keçmişi unuda, insanları bağışlaya, qəlbindən qəzəbi və nifrəti qova bilmir.

Nastasya Filippovna və knyaz Mışkin yenidən görüşürlər və o, yenidən Nastasya Filippovnaya ona ərə getməyi təklif edir. Bu nikahda Mışkinin əsas məqsədi bu zavallı qadını xilas etmək idi. O, burada şəxsi mənafe güdmür, öz şəxsi səadətini axtarmırdı. Onun məqsədi Nastasya Filippovnanı onu gözləyən fəlakətdən xilas etməkdir. Onların qarşısında Roqojin kimi güclü bir rəqib də vardı. Roqojin knyaz Mışkini öz niyyətlərindən çəkindirmək, hətta onu öldürmək də istəyir. Mışkin ondan qorxsa da, nədənsə Roqojinin belə bir alçaq hərəkətə qadir olmasına inanmır. Roqojinin qan tökməyə hazır və qadir olduğunu görə-görə o, yenə də buna inanmır. Dostoyevski hesab edir ki, elə əsl inam budur, aşkarlığın əksinə olaraq inanmaq dərin və əsaslı inamdır. İsanın meyitini görmüş insanların belə bir meyitin dirilməsinə inamları da bu cür aşkarlığın əksinə olaraq olan inamdır. Yəni məntiqi inam deyil, qəlbdən və ruhdan gələn inamdır. Mışkində insanlara qarşı olan inam məhz bu cür inamdır. Ona görə də o, Roqojinə öz rəqibi kimi baxa bilmir, ona qarşı bir qardaş münasibəti bəsləyir. Bütün insanların qardaşlıq ideyası pravoslav xristianlığın əsas ideyalarından biridir.

Beləliklə, Nastasya Filippovnada yeni ümid yaranır və o, Mışkinlə nikaha hazırlaşır. O, Mışkində öz xilasını, Roqojində isə öz məhvini görür. İndi Mışkini seçməklə o, öz xilasına ümid edir. Amma qəlbinin dərinliyində digər imkanı da, yəni Roqojin variantını və ölüm sonluğunu da unutmur. Hansı sonluq Nastasya Filippovna üçün daha məqbul olacaqdır? Hələlik Mışkin variantı seçilir. Nəhayət, gəlib o gün çatır və Mışkinlə Nastasya Filippovna kilsədə nikah çələngi altında dayanıb keşişin xeyir-duasını gözləyirlər. Elə bu vaxt kütlənin içində bir cüt göz öz məşum parıltısı ilə Nastasyanın diqqətini çəkir. Bu, Roqojin idi. Nastasya Filippovna bir andaca qərar qəbul edir və beləcə nikah paltarında özünü Roqojinin üstünə atır. Onun qəlbinin dərinliyindəki o gizli ölüm istəyi qalib gəlir. Roqojin yırtıcı bir vəhşi öz ovunu qapan kimi, Nastasyanı götürüb aradan çıxır və elə həmin gecə də onu öldürür. Nastasyanın axtardığı da elə bu idi. O son ümidsizlik içində bu variantı seçir.

Mışkin axtara-axtara gəlib Roqojinlərin evinə çıxır. Bu, böyük, daş bir tikili idi. Sanki evin zahiri görkəmi onun sahibinin qəlb dünyasından xəbər verirdi. Roqojinin otağına girən qapının üstündə rəssam Genin çəkdiyi İsanın çarmıxdan təzəcə düşürülmüş şəkli əks olunmuşdu. Burada qan ləkələri və yaralarla örtülmüş bir meyit təsvir olunmuşdu. Bu cür şəklə baxanda adamın az qala inamı itəcəkdi. Yəni belə bir meyitin diriləcəyinə necə inanmaq olardı? Bütün bunlar Roqojinlər ailəsinin ruhi vəziyyətindən xəbər verir. Bu tacir ailəsi yerin həqiqətləri ilə yaşayır və sanki səma həqiqətlərindən bixəbərdir. Təsadüfi deyil ki, gözəllik, dünyanı xilas edəcək gözəllik məhz bu ailənin üzvü tərəfindən qətlə yetirilir. Məsələ burasındadır ki, elə həmin gecə Roqojin Nastasya Filippovnanı öldürür.

Mışkin Roqojinin otağına daxil olanda artıq Nastasya Filippovna ölmüşdü. Əsərin bu final səhnəsi, yəni Roqojinlə Mışkin Nastasyanın meyiti yanındakı səhnə əsərdə vacib və böyük bədii və ideya tutumuna malikdir. Yarı qaranlıq otaqda Roqojin təkcə oturub və bir kəlmə belə danışmır. Onun yanında çarpayıda, mələfənin altında, başdan-ayağa örtülü halda Nastasyanın cəsədidir. Onun yan-yörəsində tələm-tələsik soyundurulub atılmış pal-paltar, hansısa şəbəkələr, zinət əşyaları atılıb qalmışdı. Əşyaların bu xaosu sanki Nastasyanı əhatə edən və onu ölümə qovuşduran bu mühitin ifadəsidir. Nastasyanın bədəni, onun vücudu isə saf təbii gözəlliyi təmsil edir. Mələfənin altından onun bir ayağının ucu görünür və bu, tam hərəkətsiz, ağappaq mərmərdən yonulmuş kimi şumal və gözəl ayaq sanki real insanın deyil, hansısa pyedestaldan düşürülmüş və Roqojinin yarıqaranlıq otağına gətirilmiş gözəllik ilahəsinin heykəlidir. Sanki bu gözəllik artıq əbədiyyətə qovuşmuşdur. Bu səhnənin təsvirində Dostoyevski bir dəfə də olsun "meyit", "ölü vücud" və bu kimi sözləri işlətmir. Çünki gözəlliyin meyiti olmur, onun heykəli olur. Bu məqamda Nastasya Filippovna heykələ bənzəyir, gözəllik ilahəsinin heykəlinə.

Mışkin Roqojinlə yanaşı oturur və Roqojin Nastasyanı necə öldürdüyünü ucadan danışır və gülür. Deyir ki, sol döşünün altından bıçaqla necə vurdusa, heç qan da çıxmadı. Yəni Nastasyanın gözəl vücudu qana bulaşmış halda təsvir olunmur, təmiz qalır. Bu da təsadüfi deyil. Roqojin Mışkindən ittiham sözləri gözləyirdi, nifrət, bəlkə də söyüş gözləyirdi. Amma bunların əvəzinə rəhm və məhəbbət gördü. Bəli, Mışkinin Roqojinə rəhmi gəlir. O, öz rəqibini qucaqlayıb üzünü onun üzünə söykəyir və Mışkinin göz yaşları Roqojinin sifətinə axır. Birdən Roqojin susur, sanki onun yatmış qəlbi ayılır, ölmüş ruhu dirilir və məsələnin nə yerdə olduğunu dərk edir. Roqojin tacir oğlu olsa da, puldan savayı heç nəyə səcdə etməsə də, onun ruhu tamamilə ölü deyildi. Bunu onun gözəlliyə olan çılğın və kobud məhəbbəti də təsdiqləyir. Əgər bu məhəbbət olmasaydı, Roqojin Nastasya Filippovnaya rast gəlməsəydi, o, öz dilsiz-ağızsız arvadı ilə evin küncündə oturub, sakitcə pul saymaqla və pul toplamaqla məşğul olacaqdı. Gözəllik və məhəbbət Roqojini bu pul dünyasından ayırıb onu başqa bir dünyaya qovuşdurmuşdu. Lakin tacir oğlu Roqojin gözəllik dünyasında da, məhəbbət aləmində də özünü tacir kimi aparır, yəni hər şeydə pula güvənir, onu hər şeydən güclü hesab edir, bütün müşkülləri pulun vasitəsilə həll etmək, hətta sevdiyi gözəli də pulla satın almaq istəyir. Roqojin anlaya bilmir ki, gözəllik ilahi dəyərdir, onu sevmək olar, amma pulla almaq olmaz. Ona görə də Roqojin öz məhəbbətinə deyil, öz puluna etibar edir və nəticədə sevdiyi qadını öz əlilə məhv edir. Gözəllik timsalı olan Nastasya Filippovna məhv edilir, ruhi kamillik mücəssəməsi olan knyaz Mışkin birdəfəlik ruhi pozuntuya məruz qalır. İlk baxışdan pessimistik görünən bu final səhnəsi, əslində, optimist ovqat təlqin edir. Yəni gözəllik fiziki cəhətdən iflasa uğrasa da, mənəvi cəhətdən qalib gəlir, insanların qəlbində silinməz iz buraxmaqla əbədiyyətə qovuşur. Dostoyevskinin "gözəllik dünyanı xilas edəcək" tezisi qüvvədə qalır.

Əsərdəki Qanya İvolgin obrazı və xarakteri həm dövr üçün səciyyəvi, həm də əsərdə müəyyən bədii funksiyası olan obrazdır. Qanya sırf dövrün övladıdır. O, general oğlu olsa da, atasının yolu ilə getmir, çünki indiki zəmanə generalları deyil, milyonçuların zəmanəsidir və milyonçu qarşısında general ikincidərəcəli bir adamdır. Qanya İvolgin həddən artıq iddialı bir gənc olmaqla yanaşı, həm də həddən ziyadə adi, miskin, heç nəylə seçilməyən, heç bir məziyyəti olmayan bir cavan oğlandır. Onun ağlına və sonra da qəlbinə bir ideya hakim kəsilir: milyonçu olmaq və bununla da miskinliyin daşını birdəfəlik atmaq, dünyanın ən orijinal, ən dəyərli, gözəl bir insanı olmaq. Qanya çox gözəl anlayır ki, bu dünyada və bu zəmanədə pul elə bir sehrli gücə malikdir ki, o heç bir dəyəri olmayan bir kəsi də ən dəyərli, ən nüfuzlu bir insan səviyyəsinə qaldırır. Ona görə də Qanya İvolgin milyonçu olmaq arzusuna düşür. Burada milyon heç də yaşamaq və kef çəkmək üçün vəsait və vasitə deyil. Burada milyon qəhrəman üçün öz insanlıq dəyərini dərk etmək və onu təsdiq etmək üçündür. O, gələcək milyonun naminə mənəvi güzəştlərə getməyə qərar verir və hətta bu yolda ifrat əclaflıqdan və alçaqlıqdan da imtina etməmək qərarına gəlir. Əclaflıq etmək lazım gələrsə, bunu sonacan etmək gərəkdir deyə, bu yolda hər şeydən keçməyə hazır olmaq istəyir. Amma lazım gələndə o, bu əclaflığı sonacan edə bilmir, çünki onun ruhunun və qəlbinin dərinliyindəki, özünün də xəbəri olmayan o mənəviyyat baş qaldırır və onun bütün planlarını altüst edir. Ona görə də Qanya İvolgin Nastasyanın oda atdığı pulları çıxara bilmir, sonra isə, ürəkkeçməsindən ayıldıqdan sonra, ona bəxş edilmiş o yüz mindən imtina edir. Nastasya Filippovnanın gözəlliyi Qanyanın qara və qaranlıq qəlbini öz ziyası vasitəsilə işıqlandıra bilməyəndə onu gözəlliyin alovu ilə yandırıb saflaşdırdı. Amma Dostoyevski gözəlliyin bu alovlu missiyasına ümid etmirdi. O, daha çox gözəlliyin saflaşdırıcı, ziyalandırıcı, isindirici missiyasına bel bağlayırdı. Ona görə də yazıçı fiziki gözəlliyi ruhi gözəlliklə birləşdirib bir harmoniya vəziyyətinə gətirməyi arzulayırdı. Amma pulun hökmranlıq etdiyi dünyada bu harmoniya mümkün olmadı - Nastasyayla Mışkin ayrıldılar, sonra da biri fiziki cəhətdən, digəri əqli və ruhi cəhətdən məhv oldular. Amma gözəlliyin bir dəfə peyda olub günəş kimi parladığı bu zülmət dünyasında xaos da əbədi olaraq bərqərar ola bilmədi. Gözəllik bu zülməti və bu xaosu ani də olsa dağıtdı, başqa, harmonik və işıqlı bir dünyanın mümkünlüyü barədə təsəvvür yaratdı və yeni təəssürat oyatdı. Gözəlliyin bu dünyadakı faciəsi bitdi, amma onun gələcək qələbəsinə bir ümid və inam da yarandı. Nə qədər ki, dünyada insan deyilən bir məxluq vardır, bu ümid və inam itməyəcəkdir. Bu da Dostoyevskinin pessimizm içindəki optimizmi, ümidsizlik içindəki inamıdır.